

# 7 FEVRAL 2024-cü il

NÖVBƏDƏNKƏNAR
AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİ SEÇKİLƏRİ

# POLİS ƏMƏKDAŞLARI ÜÇÜN YADDAŞ KİTABÇASI

AZƏRBAYCAN RESPUBLİKASI VƏTƏNDAŞLARININ DÖVLƏT ORQANLARINA SEÇMƏK VƏ SEÇİLMƏK, HABELƏ REFERENDUMDA İŞTİRAK ETMƏK HÜQUQU VARDIR.

AZƏRBAYCAN RESPUBLİKASININ
KONSTİTUSİYASI
Maddə 56, I hissə

Bu "Yaddaş kitabçası"nın mətnini Mərkəzi Seçki Komissiyası
Daxili İşlər Nazirliyi ilə birgə hazırlamışdır.

**Bu Yaddaş kitabçası 7 fevral 2024-cü ilə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərində polis əməkdaşlarının istifadəsi üçün nəzərdə tutulmuşdur.**

Polis əməkdaşı Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq-mühafizə orqanında müəyyən vəzifə tutan və "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları ilə müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur. O, qanunvericilikdə nəzərdə tutulmuş qaydada ictimai qaydanın qorunması və ictimai asayişin bərpa edilməsi kimi xidməti vəzifələri yerinə yetirir. Polis əməkdaşlarının qanunazidd hərəkətləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət yaradır.

## *«Polis haqqında» Azərbaycan Respublikasının Qanunundan çıxarış*

**Maddə 1:**

**polis** – Azərbaycan Respublikasının icra hakimiyyətinə mənsub olan vahid mərkəzləşdirilmiş hüquq mühafizə orqanıdır;

**polis əməkdaşı** – polis orqanlarında müəyyən vəzifə tutan və bu Qanunla müəyyənləşdirilmiş səlahiyyətləri həyata keçirən dövlət qulluqçusudur.

**Maddə 5:**

**II.** Polisin hər hansı şəxslə insanın ləyaqətini alçaldan şəkildə rəftar etməsi yolverilməzdir.

**IV.** Hər hansı şəxsin hüquq və azadlıqları məhdudlaşdırıldıqda polis əməkdaşı məhdudlaşdırmanın əsaslarını və səbəblərini, habelə bununla əlaqədar həmin şəxsin hüquq və vəzifələrini ona izah etməlidir.

**Maddə 14:**

1) Hər bir şəxsin təhlükəsizliyini təmin etmək;
7) kütləvi tədbirlər zamanı ictimai asayişi təmin etmək;

**Maddə 33:**

**V.** Polis əməkdaşı hüquqa zidd hərəkətlərinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada məsuliyyət daşıyır.

## YADDA SAXLA!

- Polis əməkdaşı səsvermə günü **xidməti formada olmalıdır.**
- Polis əməkdaşı **xidməti vəzifəsini seçki məntəqəsi yerləşən binadan azı 100 metr aralıda yerinə yetirməlidir.**
- Polis əməkdaşının Azərbaycan Respublikası Seçki Məcəlləsinin 104.14-cü maddəsinə əsasən **səsvermədə seçici kimi iştiraketmə halları istisna edilməklə, səsvermə zamanı seçki məntəqəsində olması qadağandır.**
- Polis əməkdaşı **yalnız məntəqə seçki komissiyası sədrinin dəvəti ilə** ictimai asayişi bərpa etmək üçün səsvermə otağına daxil ola bilər. Bu zaman səsvermə müvəqqəti olaraq dayandırılır. Polis əməkdaşı ictimai asayişi bərpa edərkən qanunvericiliyin müvafiq tələblərinə əməl etməli, **ictimai asayiş bərpa edildikdən sonra dərhal seçki məntəqəsini tərk etməli və öz xidməti vəzifəsini yuxarıda göstərilən məsafədə yerinə yetirməlidir.**

- Seçki günü: **7 fevral 2024-cü il**

  Səsvermə başlayır: **saat 8.00-da;**
  Səsvermə başa çatır: **saat 19.00-da**.

**Seçki prosesinin aşağıdakı dövrləri əhatə edən mərhələlərinə və subyektlərinə diqqət yetirməyiniz faydalı olardı:**

- Azərbaycan Respublikası Prezidentliyinə namizədin irəli sürülməsi – seçkilərin təyin edilməsi haqqında qərar rəsmi dərc olunduqdan sonra.
- Azərbaycan Respublikası Prezidentliyinə namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi – 19 dekabr - 8 yanvar saat 18-dək.
- seçkiqabağı təşviqat dövrü – 15 yanvar - 6 fevral saat 8.00-dək.
- səsvermə günü və ondan əvvəlki gün seçkiqabağı təşviqat aparıla bilməz– 6 fevral saat 8.00-dan -7 fevral saat 19.00-dək.
- səsvermə 7 fevral saat 8.00-dan 19.00-dək.
- seçki məntəqəsində səslərin sayılması, protokolların tərtib edilməsi və seçki sənədlərinin DSK-ya verilməsi – saat 19.00-dan sonra səslərin hesablanmasına yekun vurulandan sonra dərhal, lakin 24 saatdan gec olmadan.
- protokolların MnSK-dan DSK-ya, DSK-dan isə MSK-ya verilməsi – fevralın 9-dan gec olmayaraq

**Seçkilərin hazırlanması və keçirilməsi dövründə polis əməkdaşının fəaliyyət istiqamətləri aşağıdakı mərhələləri əhatə edir:**

*(Seçici siyahıları ilə iş, seçkiqabağı təşviqat dövrü, rəsmi seçki sənədlərinin daşınması, mühafizə olunması və səsvermə günü)*

- **Seçici siyahılarının tərtib olunması və dəqiqləşdirilməsi.**

  – Qanunvericiliklə müəyyən olunmuş qaydada fəaliyyət göstərmək və seçki komissiyaları ilə əməkdaşlıq etmək.

- **Seçkiqabağı təşviqat dövründə:**

| **15 yanvar – 6 fevral (saat 8.00-dək)** |
|---|

– kütləvi seçkiqabağı təşviqat tədbirlərində iştirakçılarının təhlükəsizliyinin təmin olunması;
– seçicilərlə görüşlərin keçirildiyi yerlərdə ictimai asayişin qorunması və təhlükəsizliyin təmin edilməsi;
– xüsusi ayrılmış yerlərdən asılmaqla nümayiş etdirilən qanunauyğun təşviqat materiallarının korlanmasının qarşısının alınması;
– müvafiq seçki komissiyasının müraciəti əsasında qanunazidd təşviqatın dayandırılması və qanunsuz yayılan seçkiqabağı təşviqat materiallarının götürülməsi.

**YADDA SAXLA!**

Polis toplantıya qanunsuz müdaxilə etməməli və toplantı iştirakçılarına təzyiq göstərməməlidir.

- **Rəsmi seçki sənədlərinin daşınması və mühafizə olunması prosesində:**
  - seçki bülletenləri, səsvermə protokolları, qeydiyyatdan çıxma vəsiqələri və s. rəsmi seçki sənədləri Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından müvafiq məntəqə seçki komissiyalarına aparılarkən etibarlı mühafizənin təmin edilməsi;
  - həmin sənədlərin müvafiq seçki komissiyalarında etibarlı mühafizəsinin təmin olunması;
  - səsvermə başa çatdıqdan sonra səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyalarının protokolları və onlara əlavə edilən digər sənədləri dairə seçki komissiyalarına, həmçinin dairə seçki komissiyalarından müvafiq sənədlər Mərkəzi Seçki Komissiyasına çatdırılarkən etibarlı mühafizənin təmin edilməsi.
- **Səsvermə günü:** yalnız MnSK sədrinin dəvəti ilə:
  - seçki məntəqəsinə daxil olaraq ictimai asayişin bərpa edilməsi;
  - seçki məntəqəsinin qarşısına gələrək exit-pollun fəaliyyətinə qanunsuz müdaxilənin qarşısının alınması.

**YADDA SAXLA!**

Azərbaycan Respublikasının vətəndaşı kimi polis əməkdaşının da qanunvericiliklə müəyyənləşdirilmiş qaydada seçkilərdə seçici qismində iştirak etmək hüququ vardır.

**YADDA SAXLA!**

Prezident seçkiləri zamanı qeydiyyatdan çıxma vəsiqəsi Azərbaycan Respublikasının bütün ərazisində tətbiq edilir.

Əgər polis əməkdaşı seçkilər günü xidməti fəaliyyəti ilə əlaqədar aid olduğu seçki məntəqəsində səs verə bilmirsə, o, qeydiyyatdan çıxma vəsiqəsi ilə ərazisində olduğu seçki məntəqəsində səsvermədə iştirak edə bilər.

Qeydiyyatdan çıxma vəsiqəsi dairə seçki komissiyasından səsvermə gününə **45–25 gün** qalmış, məntəqə seçki komissiyasından isə səsvermə gününə **24 – 3 gün** qalmış götürülə bilər.

## Seçkilər zamanı istifadə edilən bəzi anlayışlar: (Azərbaycan Respublikasının Seçki Məcəlləsindən çıxarış)

**seçki hüququ –** Azərbaycan Respublikasının Prezidentini seçmək, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı təşviqatda, seçki komissiyalarının işində, seçkilərin keçirilməsinin müşahidəsində (seçkilərin nəticələrinin müəyyənedilməsi də daxil olmaqla), səsvermədə və digər seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək;

**seçici –** seçki hüququna malik şəxs;

**seçki hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququ olan şəxslər** – prezidentliyə namizəd, prezidentliyə qeydə alınmış namizəd, siyasi partiyalar, siyasi partiyaların bloku, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, yerli və beynəlxalq (xarici) müşahidəçilər, kütləvi informasiya vasitələrinin nümayəndələri;

**namizəd –** Azərbaycan Respublikasının Prezidenti seçilmək üçün Seçki Məcəlləsinə uyğun namizədliyi irəli sürülmüş şəxs;

**qeydə alınmış namizəd –** Azərbaycan Respublikasının Prezidenti seçilmək üçün Seçki Məcəlləsinə uyğun namizədliyi irəli sürülmüş və Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən qeydə alınmış şəxs;

**siyasi partiyalar bloku –** seçkilərdə birgə iştirak etmək üçün iki və ya daha çox siyasi partiyanın yaratdığı və seçkilər zamanı siyasi partiyalarla eyni hüquqa malik olan blok;

**səlahiyyətli nümayəndə –** Seçki Məcəlləsi ilə nəzərdə tutulan seçki hərəkətlərinin həyata keçirilməsi məqsədilə prezidentliyə namizədlər, namizəd irəli sürmüş siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən təyin edilən, seçki komissiyaları qarşısında onları təmsil edən, seçkiqabağı təşviqat da daxil olmaqla, həmin subyektlərin adından hüquqi əhəmiyyətli hərəkətlər etmək hüququ olan şəxs;

**vəkil edilmiş şəxs –** namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən təyin edilən, qeydə alınmış namizədin seçilməsi üçün təşviqat aparan və digər bu cür fəaliyyətlə məşğul olan, eyni zamanda müşahidəçi hüququna malik olan şəxs.

**müşahidə –** məlumatların yığılması və onların qiymətləndirilməsi əsasında ekspert rəyinin hazırlanması;

**müşahidəçi –** seçkilərin keçirilməsi zamanı MSK və ya DSK tərəfindən seçki prosesini müşahidə etmək səlahiyyəti verilmiş şəxs;

**beynəlxalq müşahidəçi –** seçkiləri müşahidə etmək hüququ almış xarici dövləti, xarici və ya beynəlxalq təşkilatı təmsil edən şəxs;

**seçici siyahıları –** müvafiq seçki məntəqəsinin ərazisində yaşayan və aktiv seçki hüququna malik olan Azərbaycan Respublikası vətəndaşlarının siyahıları;

**seçkiqabağı təşviqat –** vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştirak etməyə, bu və ya digər namizədin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyəti;

**seçkiqabağı təşviqatın aparılması üsulları:**

- kütləvi informasiya vasitələri ilə;
- kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və s.) keçirilməsi yolu ilə;
- çap olunmuş, audiovizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;
- qanunla qadağan edilməyən digər üsullarla.

**təşviqat materialları –** seçki kampaniyası zamanı dərc edilməsi və ya digər üsullarla yayılması nəzərdə tutulan seçkiqabağı təşviqata həsr edilmiş çap, audiovizual və digər materiallar.

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN